# Üzeyir bəy Hacıbəylinin iki əsəri haqqında

## "Ər və arvad"




Şərqin ilk operettası olan "Ər və arvad" əsəri 1909-cu ildə Üzeyir bəy Hacıbəylinin yaradıcılığında say etibarı ilə "Leyli və Məcnun" və "Şeyx Sənan" operalarından sonra üçüncü yeri tutur. "Bakı" (rus dilində) qəzetinin1910-cu il 9 aprel tarixli nömrəsində belə bir xəbər çap edilmişdir: " "Leyli və Məcnun" və "Şeyx Sənan" ilk müsəlman operalarının müəllifi Üzeyir bəy Hacıbəyli müsəlman səhnəsi üçün "Ər və arvad" adlı yeni operetta yazmışdır. Operetta baxılmaq üçün "Nicat" cəmiyyətinin teatr-ədəbiyyat komissiyasına təqdim edilmişdir". Musiqili komediya 3 pərdəlidir. Librettosu da bəstəkarındır. Əsərin ideyası ağıllı və tədbirli arvadın (Minnət xanım) müflisləşmiş və düşkünləşmiş ərindən (Mərcan bəy) mənəviyyatca üstünlüyünü açıb göstərməkdir. Musiqili komediyada Minnətin məsləhətçisinə və müttəfiqinə çevrilən namuslu, vicdanlı nökər obrazının böyük rəğbətlə yaradılması o dövr Azərbaycan cəmiyyətində gedən demokratikləşmə prosesinin təzahürü idi. Operettanın ilk tamaşası 110 il bundan əvvəl - 1910-cu il mayın 24-də Bakıda, Nikitin qardaşlarının teatr-sirkinin səhnəsində göstərilmişdir.

Hüseynqulu Sarabski (Marjan bəy), Əhməd Ağdamski (Minnat xanım), M.H.Terequlov (Safi) və Mirzağa Əliyev (Kerbelayi Gubad) aparıcı hissələrlə çıxış etmiş, tamaşanın baş rejissoru Hüseyn Ərəblinski olmuşdur. Üzeyir Hacıbəyov isə dirijor idi. "Ər və arvad" operettası sonradan Naxçıvan, Ağdam və Şəki kimi digər teatrlarda səhnələşdirilmişdir.100 illik fasilədən sonra "Ər və arvad" operettasının ilk premyerası 2010-cu ildə olub.Tamaşanın quruluşçu rejissoru Yusif Əkbərov, dirijoru Nazim Hacıəlibəyov, rəssamı Eldar Qurbanov, baletmeysterlər Zakir və Yelena Ağayevlər, xormeyster Vaqif Məstanovdur. Rollarda xalq artistləri İlham Namiq Kamal, Yaşar Nuri, Afaq Bəşirqızı, Fatma Mahmudova, Arif Quliyev və başqaları çıxış etmişlər.

## "Şah Abbas və Xurşid Banu"

Üzeyir bəy Hacıbəyli dördüncü muğam operası olan "Şah Abbas və Xurşid Banu"əsərini 1911-ci ildə yazmışdır. Operanın mətni 1912-ci il fevral ayının əvvəllərində Bakıda Orucov qardaşlarının mətbəəsində çap edilmişdir. Əsəri səhnədə göstərmək üçün icazə Qafqaz canişini dəftərxanası tərəfindən 1912-ci il martın 5-də verilmişdir. Librettosu Ü.Hacıbəylinindir. Azərbaycan xalq nağılının motivləri əsasında yazılmış əsər 4 pərdəli, 6 şəkillidir.

Opera ilk dəfə 1912-ci il martın 10-da (23-də) Nikitin qardaşlarının sirkində tamaşaya qoyulmuşdur. C.Cabbarlı adına teatr muzeyində saxlanılan tamaşa proqramları əsasında müəyyən edilmişdir ki, opera 1912-ci il oktyabrın 26-da və noyabrın 16-da Tağıyev Teatrı səhnəsində də göstərilmişdir. Tamaşanın rejissoru H. Ərəblinski, dirijoru M. Maqomayev idi. Rollarda H. Sarabski (Şah Abbas), Ə. Ağdamski (Xurşid Banu), H. Terequlov (Məstavər) və başqaları çıxış etmişlər.



Rza Darablı "Şah Abbas və Xurşid Banu" operasında aşpaz Məstavər rolunu ifa etmişdir. Opera Azərbaycan səhnəsində 30-cu illərədək tamaşaya qoyulmuşdur.

Əvvəlki operalarından fərqli olaraq xoşbəxt sonluqla bitən bu əsərin qəhrəmanı mənsəbpərəst və şöhrətpərəst şaha qalib gəlmiş sadə odunçu qızıdır. Əsərdə ülvi məhəbbət zəfər çalır. Hacıbəylinin əvvəlki əsərlərindəki kimi, burada da muğamlardan geniş istifadə olunur. Lakin əsərdə müəllif materialı xeyli artırılmışdır ki, bu da onun yaradıcılıq inkişafına dəlalət edir. Ü. Hacıbəyli qəhrəmanların fərdi xüsusiyyətlərini əks etdirən musiqi yarada bilmişdir. Operada ən böyük uğur Şah Abbasın partiyasıdır. Muğam operalarında ilk dəfə olaraq ənənəvi-klassik tipli ariya səslənmişdir (birinci pərdədə).

Lakin bununla belə bu ariyada milli lad-intonasiyası da aydın hiss olunur. Ariya dramaturji cəhətdən də çox maraqlıdır. Burada Şah Abbas obrazı hərtərəfli təsvir olunur, onun həm xəyalpərəst, şairanə, dərin hisslərlə yaşayan bir şəxs, həm də hökmran, qətiyyətli bir şah olması açıqlanır. Ariyanın iki planlı məzmunu bir tərəfdən lirik, yumşaq, digər tərəfdən isə marşabənzər ruhda olub, Heyratı zərbi muğamını xatırladır. Operada Xurşid Banunun birinci pərdədəki ariyası, Məstavərin partiyası da müəllif musiqisi ilə ifadə olunur. Ü.Hacıbəylı üçün ənənəvi olan musiqi tərzi və yeni musiqi ifadələri bəstəkarın əvvəllər istifadə etdiyi musiqi vasitələrini xeyli genişləndirmiş, operanın böyük müvəffəqiyyətinə səbəb olmuşdu.

***"Azərbaycan"***

Azərbaycan.- 2020.- 26 avqust.-S.14.